# Qaya Əliyev və başqaları Azərbaycana qarşı
# Qərar – 16.06.2016

İş 2011-ci ildə müxtəlif tarixlərdə 6 Azərbaycan vətəndaşının (**cənab Qaya İbad oğlu Əliyev, cənab Şakir Məhəmmədəli oğlu Məmmədov, cənab Xaliq Bahadır oğlu Hacıyev, cənab Fuad Ağasi oğlu Əliyev, cənab Ziyafət Mirzağa oğlu Hüseynli, cənab Akif İbad oğlu Cavadov**) İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Konvensiyanın 34-cü maddəsinə əsasən verdiyi şikayət əsasında başlanmışdır.

Ərizəçilər 7 noyabr 2010-cu il parlament seçkilərində müxtəlif seçki dairələrində namizəd qismində qeydiyyata alınmaq üçün müraciət etmişlər. Müvafiq Dairə Seçki Komissiyaları müxtəlif tarixlərdə ərizəçilərin müraciətlərini, təqdim edilmiş imzaların bəzilərinin etibarlı olmaması səbəbindən təmin etməmişdir.

Məhkəmə bu işdə aşağıdakı maddələrin pozuntusuna yol verildiyi qənaətinə gəlmişdir:

- 1 saylı Protokolun 3-cü maddəsinin pozuntusu;
- 34-cü maddənin pozuntusu.

Məhkəmə hər bir ərizəçiyə mənəvi ziyana görə 10 000 avro və məhkəmə xərcləri və digər məsrəflərə görə ərizəçilərə birlikdə 6 000 avro məbləğində kompensasiya təyin etmişdir.

**İcra etdi:** İnsan Hüquqları və İctimaiyyətlə
Əlaqələr Şöbəsinin aparıcı məsləhətçisi
Gülarə Abdullayeva
Tel.: 489-07-07 (daxili nömrə - 8095)